

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 140 (21.801)

*27 iyul 2017-ci il, cümə axşamı*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvanda "Göy quş" tamaşasına baxış olmuşdur





İyulun 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Tədbirlər Planına uyğun olaraq Naxçıvan Dövlət Musiqili Dram Teatrında belçikalı şair-dramaturq, Nobel mükafatı laureatı Moris Metterlinqin "Göy quş" əsərinin tamaşasına baxış olmuşdur.

Naxçıvan teatrında ilk dəfə səhnəyə qoyulan "Göy quş" pyesi nikbin ideyaları təlqin edir. Uşaq nağılı poetikasında yazılmış bu fəlsəfi əsər müdrik və ibrətamiz duyğular aşılayır. Tamaşada odunçunun oğlu Tiltil və qızı Mitilin qonşudakı xəstə qıza əlac etmək üçün Milad bayramı gecəsi sehrli Göy quşun axtarışına çıxaraq başqa xatirələr, gecənin sarayı, meşə, xoşbəxtliklər bağı, xoşbəxt gələcək dünyalarına səyahətlərindən bəhs olunur. Səyahət zamanı onlar dünyadan çoxdan köçmüş nənə-babalarının, eləcə də ağacların, heyvanların, işığın və gecənin gizlətdiyi təbiət sirlərinin ruhları ilə qarşılaşırlar. Tamaşanın sonunda bacı və qardaş yuxudan oyanaraq, öz dünyalarına qayıdırlar. Məlum olur ki, onların səyahəti bir gecə ərzində baş verib. Onlar başa düşürlər ki, xoşbəxtlik simvolu olan Göy quş hər kəsin öz qəlbindədir. Hər bir insanın xoşbəxtliyi onun qəlbindəki sevgi və xeyirxahlıqdır. Xoşbəxt olmaq istəyənlər xeyirxah olmağı bacarmalıdırlar. Ən böyük xoşbəxtlik isə ana, valideyn sevgisidir. Tamaşadakı uşaq obrazları bəşəriyyətin xoşbəxt gələcəyini simvolizə edərək əsərin ideyasının açılmasına imkan verir.



Azərbaycan Respublikasının Əməkdar artisti Tofiq Seyidovun quruluş verdiyi tamaşanın rəssamı Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva, musiqi tərtibatçısı sənətşünaslıq üzrə fəlsəfə doktoru Natavan Qədimovadır. Azərbaycan Respublikasının Əməkdar artistləri Behruz Həqverdiyev, Əli Əliyev, Naxçıvan Muxtar Respublikasının Əməkdar artistləri Vüsal Rzayev, Kəklik Novruzova, gənc aktyorlardan Heyran Abdullayeva, Vəli Babayev, Şölə Novruzbəyli və Fatimə Yusifli əsərin uğurlu səhnə həllinə nail ola bilmişlər.

Tamaşadan sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov səhnə arxasına keçərək yaradıcı heyətlə görüşmüşdür.

Ali Məclisin Sədri uğurlu tamaşa münasibətilə kollektivi təbrik edərək demişdir: Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Tədbirlər Planına uyğun olaraq hər il müxtəlif janrlarda əsərlər seçilərək Naxçıvan teatrında səhnəyə qoyulur. Belə tamaşalardan biri də Moris Metterlinqin "Göy quş" fəlsəfi əsəri əsasında hazırlanmış tamaşadır. Naxçıvan teatrında tarixi, dram, komediya və digər janrlarda əsərlər oynanılıb. Son dövrlərdə fəlsəfi janrda yazılmış əsərlər də səhnəyə qoyulur. Belə əsərlərdən biri də "Göy quş" pyesidir. Rejissor işi, səhnə dekorasiyaları, musiqi tərtibatı, peşəkar aktyorlarla yanaşı, muxtar respublikada fəaliyyət göstərən teatrların həvəskar və gənc aktyorlarının çıxışları tamaşanın uğurlu alınmasına səbəb oldu.

Ali Məclisin Sədri demişdir: Fəlsəfi janrda yazılmış əsərlər çətin qavranılmasına baxmayaraq, böyük mənalar ifadə edir. Ona görə də tamaşa muxtar respublikanın rayonlarında da göstərilməli, geniş kütləyə təqdim olunmalıdır. Tamaşanın uğurlu alınması həm də Naxçıvanın inkişafının göstəricisidir. Çünki hər bir yerin inkişafı, təkcə iqtisadi inkişafla deyil, həm də mədəni inkişafla ölçülür. Mədəni inkişaf olmadan ümumi inkişafı təmin etmək mümkün deyil.

Ali Məclisin Sədri rejissora və kollektivə təşəkkür etmiş, onlara yeni yaradıcılıq uğurları arzulamışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Toxumçuluq haqqında Naxçıvan Muxtar Respublikasının QANUNU

Bu Qanun Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 24-cü maddəsinin I hissəsinin 10-cu bəndinə uyğun olaraq Naxçıvan Muxtar Respublikasında toxum istehsalının, tədarükünün və istifadəsinin hüquqi əsaslarını müəyyən edir.

1-ci fəsil

**ÜMUMİ MÜDDƏALAR**

Maddə 1. **Əsas anlayışlar**

1.0. Bu Qanunda istifadə edilən anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.0.1. toxumçuluq – kənd təsərrüfatı, meşə, dərman və bəzək bitkilərinin çoxaldılması məqsədilə istifadə edilən toxumların istehsalı, tədarükü və istifadəsinə yönəldilmiş elmi, aqrotexniki və təşkilati tədbirlər sistemi;

1.0.2. toxum – sortun təkrar istehsalı üçün istifadə edilən bitkilərin generativ (toxum) və vegetativ (çilik, ting, şitil, soğanaq, kök yumruları və s.) orqanı;

1.0.3. orijinal toxum – ilkin toxumçuluq mərhələlərində bitki nəsillərinin seleksiya yolu ilə originatorun nəzarəti altında seçilməsi və qiymətləndirilməsi nəticəsində alınmış toxum;

1.0.4. super elit toxum – orijinal toxumun çoxaldılmasından alınmış toxum;

1.0.5. elit toxum – super elit toxumun çoxaldılmasından alınmış toxum;

1.0.6. reproduksiyalı toxum – elit toxumun ardıcıl çoxaldılmasından alınmış toxum;

1.0.7. sort – eyni genotip, genotiplər qrupu və fenotiplərin əlamətlərini səciyyələndirən, həmin botaniki taksona aid digər bitki qruplarından ən azı bir əlamətlə fərqlənən oxşar bitkilər qrupu;

1.0.8. sortdəyişmə – bitki sortlarının yeni, daha məhsuldar və keyfiyyətli sortlarla əvəz olunması;

1.0.9. sorttəzələmə – sorttəmizliyi və bioloji keyfiyyətləri pisləşmiş toxumların həmin sortun yüksək reproduksiyalı və keyfiyyətli toxumları ilə əvəz edilməsi;

1.0.10. aprobasiya – toxumluq əkinlərin sorttəmizliyinin, xəstəliyə yoluxmasının, ziyanvericilər tərəfindən zədələnməsinin və alaqlanma dərəcəsinin təyini;

1.0.11. sortluq və səpin keyfiyyətləri – toxumun sorta məxsus genetik təmizliyi və səpinə yararlılığının kompleks göstəriciləri;

1.0.12. ticarət dövriyyəsinə daxil olma – satış məqsədilə tədarük olunan, saxlanılan və mübadilə üçün istifadə edilən toxumlar;

1.0.13. dövlət reyestri – müəlliflik və patent hüququ mühafizə olunan bitki sortlarının dövlət qeydiyyat siyahısı;

1.0.14. toxum istehsalçılarının reyestri – toxumçuluq fəaliyyəti ilə məşğul olmaq üçün dövlət toxumçuluq xidmətində attestasiyadan keçmiş fiziki və hüquqi şəxslərin uçotu siyahısı;

1.0.15. toxum partiyası – mənşəyinə və keyfiyyətinə görə eyni olan toxum kütləsi;

1.0.16. originator – mühafizə olunan sortun əlamətlərinin qorunmasını təmin edən hüquqi və ya fiziki şəxs;

1.0.17. aprobator – bitkilərin sortluq və toxumluq əkinlərində aprobasiya aparmaq hüququ olan fiziki şəxs;

1.0.18. toxum istehsalçıları – dövlət reyestrinə daxil edilmiş sortların toxumunun istehsalı ilə məşğul olan hüquqi və fiziki şəxslər;

1.0.19. qrunt nəzarəti – bitkilərin və onların toxumlarının konkret sorta mənsub olmasını müəyyənləşdirmək üçün xüsusi sahələrdə toxum səpməklə bitkilərin sortluq təmizliyinin müqayisəli təyini;

1.0.20. laboratoriya üsulu ilə sortluq nəzarəti – laboratoriya müayinələrinin aparılması vasitəsilə toxumun sortluq təmizliyinin və onun müəyyən sorta mənsub olmasının təyin edilməsi.

Maddə 2. **Toxumçuluq haqqında Naxçıvan Muxtar Respublikasının qanunvericiliyi**

Toxumçuluq haqqında Naxçıvan Muxtar Respublikasının qanunvericiliyi bu Qanundan və digər normativ hüquqi aktlardan ibarətdir.

Maddə 3. **Toxumçuluğun məqsəd və vəzifələri**

3.1. Toxumçuluğun məqsədi yüksək məhsuldarlığa və sabit irsi əlamətlərə malik, xəstəliyə, ziyanvericilərə və müxtəlif iqlim şəraitinə dözümlü bitki sortları yetişdirmək və onların çoxaldılmasını təmin etməkdir.

3.2. Toxumçuluğun vəzifəsi dövlət reyestrinə daxil edilmiş bitki sortlarının sorttəmizliyini, bioloji və məhsuldarlıq keyfiyyətlərini saxlamaq üçün sortdəyişmə və sorttəzələməni həyata keçirməklə toxumların kütləvi artırılmasıdır.

Maddə 4. **Toxumçuluğun obyektləri və subyektləri**

4.1. Toxumçuluqda istifadə edilən bitki materialları, onların hibridləri, populyasiyaları, klonları, xətləri, toxumçuluğun obyektləridir.

*Ardı 2-ci səhifədə*

4.2. Qanunvericiliklə nəzərdə tutulmuş qaydada toxum istehsalı, tədarükü, ticarəti və istifadəsi ilə məşğul olan hüquqi və fiziki şəxslər toxumçuluğun subyektləridir.

Maddə 5. **Toxumçuluq subyektlərinin uçotu və qeydiyyatı**

Toxumçuluqla məşğul olan fiziki şəxslərin uçotu və hüquqi şəxslərin dövlət qeydiyyatı müvafiq qanunvericiliyə uyğun olaraq həyata keçirilir.

Maddə 6. **Toxumçuluğun əsas prinsipləri**

6.0. Toxumçuluq fəaliyyəti aşağıdakı prinsiplər əsasında həyata keçirilməlidir:

6.0.1. sortun səciyyəvi xüsusiyyətlərini təyin etməyə imkan verən fərqlilik, oxşarlıq, sabitlik və digər əlamətlərin qorunub saxlanması;

6.0.2. toxum istehsalında təsdiq edilmiş becərilmə sxemlərinə riayət olunması;

6.0.3. istifadə olunan sort üzərində müəllifin və patent sahibinin hüquqlarının qorunması;

6.0.4. istifadə olunan toxumların sertifikatlaşdırılmasının məcburiliyi;

6.0.5. sortun rayonlaşma qaydalarına əməl edilməsi.

2-ci fəsil

## TOXUMÇULUĞUN DÖVLƏT İDARƏÇİLİYİ

Maddə 7. **Dövlət toxumçuluq xidməti**

7.1. Naxçıvan Muxtar Respublikasında dövlət toxumçuluq xidməti toxumçuluğun idarə edilməsindən və toxumçuluğa dövlət nəzarətindən ibarətdir və müvafiq icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilir.

7.2. Dövlət toxumçuluq xidmətinin fəaliyyəti və vəzifəli şəxslərin səlahiyyətləri müvafiq qaydada təsdiq olunmuş əsasnamələr və təlimatlarla müəyyən olunur.

Maddə 8. **Dövlət toxumçuluq xidmətinin hüquqları**

8.0. Dövlət toxumçuluq xidməti aşağıdakı hüquqlara malikdir:

8.0.1. toxumçuluq subyektlərinin müvafiq qanunvericiliyə riayət etmələrinə nəzarəti həyata keçirmək;

8.0.2. toxumlara sortluq və səpin keyfiyyətlərini təsdiq edən uyğunluq sertifikatları vermək;

8.0.3. sortluq və səpin keyfiyyətlərini təyin etmək üçün toxum və bitki mənşəli məhsullardan nümunələr götürmək və onları təhlil etmək;

8.0.4. dövlət standartlarına, texniki şərtlərə uyğun gəlməyən və keyfiyyət sənədləri olmayan toxumları çıxdaş etmək və onların toxumluq məqsədilə satılmasını qadağan etmək;

8.0.5. toxumçuluq subyektlərini attestasiyadan keçirmək və uçota almaq;

8.0.6. qanunvericilikdə nəzərdə tutulmuş qaydada toxumçuluq subyektlərindən sortun patent sahibi ilə lisenziya müqaviləsi bağlanmasını tələb etmək;

8.0.7. toxumçuluq haqqında qanunvericiliyin pozulması barədə akt və təqdimatları təqsirli şəxslərin qanunvericiliklə nəzərdə tutulmuş qaydada məsuliyyətə cəlb edilməsi üçün müvafiq dövlət orqanlarına göndərmək;

8.0.8. toxum istehsalı üzrə əlverişli şəraiti olan ərazilər müəyyən etmək;

8.0.9. müəyyən edilmiş qaydada toxumçuluq üzrə müəssisələr, idarələr və təşkilatlar yaradılması üçün təkliflər vermək;

8.0.10. aprobatorların hazırlanmasını, onların ixtisasının artırılmasını və attestasiya edilməsini təşkil etmək;

8.0.11. dövlət reyestrinə daxil edilmiş sortların orijinal, super elit, elit və reproduksiyalı toxumları ilə qrunt nəzarəti aparmaq;

8.0.12. muxtar respublika ərazisində seleksiya nailiyyətlərinin dövlət reyestrini aparmaq;

8.0.13. qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

Maddə 9. **Dövlət toxumçuluq xidmətinin vəzifələri**

9.0. Dövlət toxumçuluq xidməti aşağıdakı vəzifələri daşıyır:

9.0.1. toxumçuluq subyektlərinin fəaliyyətini əlaqələndirmək;

9.0.2. tələb və təkliflər nəzərə alınmaqla, dövlət, yerli və sığorta toxum fondlarının yaradılması üçün təkliflər hazırlamaq;

9.0.3. toxumçuluğa dair standartlar, normativlər, əsasnamələr və təlimatlar hazırlamaq, təsdiq etmək və ya onları səlahiyyətli orqanların təsdiqinə vermək;

9.0.4. toxumçuluqda tətbiq edilən rəsmi dövlət sənədlərinin, kataloqların, sertifikatların, uçot-hesabat formalarının nəşrini təşkil etmək;

9.0.5. toxumçuluq üzrə sərgilər və hərraclar keçirmək;

9.0.6. toxum bazarının konyukturunu öyrənmək və təhlil etmək;

9.0.7. toxumçuluq ixtisası üzrə mütəxəssislər hazırlanmasını təşkil etmək;

9.0.8. toxum istehsalçılarını standartlar, təlimatlar və digər normativ sənədlərlə təmin etmək;

9.0.9. qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

3-cü fəsil

## TOXUMÇULUĞUN TƏŞKİLİ

Maddə 10. **Toxumçuluq sistemi**

10.1. Toxumçuluq sistemi orijinal, super elit, elit və reproduksiyalı toxumlar istehsalından, sığorta fondunun və dövlət toxum ehtiyatlarının yaradılmasından ibarətdir.

10.2. Müxtəlif bitki sortlarının toxum istehsalının xüsusiyyətləri toxumçuluq sisteminin yaradılması zamanı nəzərə alınır və müvafiq icra hakimiyyəti orqanının normativ aktları ilə tənzimlənir.

Maddə 11. **Toxum istehsalı**

11.1. Mühafizə olunan sortların toxumlarının istehsalı toxumçuluğun əsas prinsiplərinə riayət edilməsi şərtilə həyata keçirilir.

11.2. Orijinal, super elit və elit toxumların istehsalı sortun müəllifinin və ya patent sahibinin nəzarəti altında elmi-tədqiqat və tədris müəssisələrinin təcrübə təsərrüfatlarında, reproduksiyalı toxumların istehsalı dövlət və bu fəaliyyət növü ilə məşğul olan ixtisaslaşdırılmış özəl toxumçuluq subyektlərində həyata keçirilir. Sort müəllifləri qanunvericiliyə uyğun olaraq fərdi qaydada super elit və elit toxumların istehsalı ilə məşğul ola bilərlər.

11.3. Xəstəliklərə və zərərvericilərə davamlı calaqaltı və calaqüstü əkin materialları müvafiq elmi-tədqiqat müəssisələrində və ya müqavilə şərtləri ilə elmi-tədqiqat müəssisələrinin nəzarəti altında ixtisaslaşdırılmış tinglik təsərrüfatında istehsal olunur.

Maddə 12. **Toxumçuluq subyektlərinin attestasiyası**

12.1. Toxumçuluqla məşğul olan hüquqi və fiziki şəxslər müvafiq qaydada təsdiq edilmiş əsasnaməyə uyğun olaraq dövlət toxumçuluq xidmətində attestasiyadan keçirlər və toxum istehsalçılarının reyestrinə daxil edilirlər.

12.2. Toxum istehsalçılarının reyestrinə daxil edilməmiş hüquqi və fiziki şəxslərin istehsal etdikləri toxumlara sortluq və səpin keyfiyyətlərini təsdiq edən uyğunluq sertifikatları verilmir.

Maddə 13. **Toxum fondları, onların yaradılması və istifadəsi**

13.1. Məhsul istehsalçılarını təmin etmək, habelə təbii fəlakətə məruz qalmış bölgələrə köməklik göstərmək məqsədilə dövlət, sığorta və yerli toxum fondları yaradılır.

13.2. Toxum fondlarına dövlət reyestrinə daxil edilmiş sortların dövlət standartlarının tələblərinə cavab verən toxumları tədarük edilir.

13.3. Toxum fondlarının həcmi, tədarük, saxlanma və istifadə qaydaları müvafiq icra hakimiyyəti orqanları tərəfindən müəyyən edilir.

13.4. Toxum fondlarına toxum tədarükü müvafiq icra hakimiyyəti orqanları ilə toxumçuluq subyektləri arasında bağlanmış müqavilələr əsasında həyata keçirilir.

13.5. Dövlət, sığorta və yerli toxum fondlarına sifariş müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilir.

13.6. Dövlət, sığorta və yerli toxum fondları müvafiq icra hakimiyyəti orqanlarının sərəncamında olur.

13.7. Sığorta toxum fondu hər il təzələnir.

13.8. Sığorta toxum fondunun müəyyən edilmiş müddətdə başqa məqsədlər üçün istifadəsi qadağandır.

13.9. Toxum fondlarının əmtəəlik məhsuldan yaradılmasına bir qayda olaraq yol verilmir. Müstəsna hallarda toxum fondlarının əmtəəlik məhsuldan yaradılması müvafiq icra hakimiyyəti orqanının qərarı ilə həyata keçirilə bilər.

4-cü fəsil

## TOXUMÇULUQ MÜƏSSİSƏLƏRİ VƏ TOXUMÇULUQDA SAHİBKARLIQ FƏALİYYƏTİ

Maddə 14. **Dövlət toxumçuluq müəssisələri**

14.1. Dövlət toxumçuluq müəssisələri öz fəaliyyətlərini təsərrüfat hesabı və özünümaliyyələşdirmə prinsipi ilə həyata keçirirlər. Toxumçuluğun inkişafını dəstəkləmək üçün dövlət büdcəsindən bu sahəyə məqsədli vəsaitlər ayrıla bilər. Dövlət toxumçuluq xidməti belə müəssisələrə yalnız onların əsas fəaliyyət istiqamətlərinə aid məhsullara sifariş müəyyən edir, digər məhsullara müəssisə sərbəst sərəncam verir.

14.2. qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla, dövlət toxumçuluq müəssisələrinin fəaliyyətinə və idarə edilməsinə dövlət və yerli özünüidarə orqanlarının müdaxiləsinə yol verilmir.

Maddə 15. **Özəl toxumçuluq müəssisələri**

Özəl toxumçuluq müəssisələrinin təşkilati-hüquqi formalarını təsisçilər müstəqil müəyyən edir, onların yaradılması və fəaliyyəti qanunvericiliklə tənzimlənir.

Maddə 16. **Fərdi toxumçuluq fəaliyyəti**

Fərdi toxumçuluq fəaliyyəti ilə məşğul olmaq istəyən fiziki şəxslər bu Qanunda nəzərdə tutulmuş hal istisna olmaqla, yalnız reproduksiyalı toxumların istehsalı və satışı ilə məşğul ola bilərlər.

Maddə 17. **Toxumçuluq subyektlərinin hüquqları**

17.0. Mülkiyyət formasından asılı olmayaraq toxumçuluq fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslər aşağıdakı hüquqlara malikdirlər:

17.0.1. sahibkarlıq fəaliyyətini müstəqil qurmaq;

17.0.2. qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla, istehsal edilən məhsullara sahiblik, istifadə və sərəncam hüquqlarını sərbəst həyata keçirmək;

17.0.3. dövlət toxumçuluq xidmətindən güzəştli şərtlərlə toxum, uçot-hesabat sənədləri almaq, istehsal etdikləri məhsullara keyfiyyət sənədləri verilməsini tələb etmək;

17.0.4. toxumçuluq sahəsində keçirilən konfranslarda, simpoziumlarda, sərgilərdə və hərraclarda iştirak etmək;

17.0.5. toxumçuluqda tətbiq edilən maliyyə-kredit, gömrük və başqa güzəştlərdən istifadə etmək;

17.0.6. qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

Maddə 18. **Toxumçuluq subyektlərinin vəzifələri**

18.0. Toxumçuluq subyektlərinin vəzifələri aşağıdakılardır:

18.0.1. toxumçuluğa dair qanunvericiliyə əməl etmək;

18.0.2. toxumçuluğun əsas prinsiplərinə riayət etmək;

18.0.3. patent sahibi ilə müəyyən edilmiş qaydada bitki sortlarının toxumlarından istifadəyə görə haqq ödənilməsini nəzərdə tutan lisenziya müqaviləsi bağlamaq;

18.0.4. ticarət dövriyyəsinə daxil edilən toxumların sənədlərində göstərilmiş sortluq və səpin keyfiyyətlərinə təminat vermək;

18.0.5. dövlət standartları ilə müəyyən edilmiş müddətdə toxum nümunələrini saxlamaq;

18.0.6. hər bir sort üzrə, müəyyən edilmiş formada, toxumların sortluq və səpin keyfiyyətlərinin sənədləşdirilməsini aparmaq və onları bir il müddətində saxlamaq;

18.0.7. bitki karantini tələblərinə əməl etmək;

18.0.8. müəyyən edilmiş qaydada uçot-hesabat işləri aparmaq və müvafiq orqanlara məlumat vermək;

18.0.9. qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

5-ci fəsil

## TOXUMLARIN DÖVRİYYƏSİ

Maddə 19. **Toxumların dövriyyəyə daxil edilməsi**

Naxçıvan Muxtar Respublikasında dövlət reyestrində qeydiyyata alınmış, sortluq və səpin keyfiyyətləri dövlət standartlarının tələblərinə cavab verən bitki sortlarının toxumları dövriyyəyə daxil edilir.

Maddə 20. **Toxumların sortluq və səpin keyfiyyətlərinin sertifikatlaşdırılması**

20.1. Toxumların sortluq və səpin keyfiyyətlərinin normaları müvafiq dövlət standartları ilə müəyyən edilir.

20.2. Toxumluq əkinlərin tarla müayinəsi, aprobasiyası, toxum nümunələrinin təhlili müvafiq qaydada təsdiq edilmiş təlimatlar əsasında dövlət toxumçuluq xidməti tərəfindən aparılır.

20.3. Toxumların laboratoriya təhlili dövlət toxumçuluq xidmətinin akkreditasiya edilmiş sınaq laboratoriyalarında və ya akkreditasiya edilmiş sınaq laboratoriyalarında aparılır.

20.4. Dövlət standartlarının tələblərinə cavab verən toxumlara akkreditasiya edilmiş uyğunluğu qiymətləndirən qurumlar tərəfindən sortluq və səpin keyfiyyətlərini təsdiq edən uyğunluq sertifikatları verilir. Bu uyğunluğu qiymətləndirən qurumların akkreditasiyası qanunvericiliklə müəyyən olunmuş qaydada həyata keçirilir.

20.5. Dövlət standartlarına cavab verməyən toxumlara təhlillərin nəticəsini əks etdirən vəsiqələr verilir.

Maddə 21. **Toxumların qablaşdırılması və etiketləşdirilməsi**

21.1. Ticarət dövriyyəsinə daxil edilmiş toxumlar müvafiq qaydada qablaşdırılır və etiketləşdirilir.

21.2. Etiketdə toxumun keyfiyyəti haqqında tam məlumatlar verilir.

21.3. Kimyəvi və bioloji preparatlarla işlənmiş toxumların qablarında müvafiq xəbərdarlıq yazıları olur.

21.4. Etiketdə və ya müşayiətedici sənədlərdə toxumların istifadəsi üzrə təhlükəsizlik qaydaları haqqında məlumatlar olur.

Maddə 22. **Toxumların ticarət dövriyyəsinə daxil edilməsi**

22.1. Naxçıvan Muxtar Respublikasında rayonlaşmış, sortluq və səpin keyfiyyətlərini təsdiq edən uyğunluq sertifikatı və fitosanitar sertifikatı olan bitki sortlarının toxumları ticarət dövriyyəsinə daxil edilir.

22.2. Aşağıdakı toxumların ticarət dövriyyəsinə daxil edilməsinə yol verilmir:

22.2.1. rayonlaşmamış sortların;

22.2.2. sortluq və səpin keyfiyyətlərini təsdiq edən uyğunluq sertifikatı və fitosanitar sertifikatı olmayan toxumların;

22.2.3. qablaşdırılmamış və etiketləşdirilməmiş toxumların;

22.2.4. sortluq və səpin keyfiyyətlərini təsdiq edən uyğunluq sertifikatının müddəti qurtarmış toxumların;

22.2.5. sort qarışığı olan toxumların.

Maddə 23. **Toxumların karantin mühafizəsi**

Toxumların karantin obyektlərindən mühafizəsi fitosanitar nəzarət haqqında qanunvericiliyə uyğun həyata keçirilir.

Maddə 24. **Toxumların əldə edilməsi, istifadəsi və satışı**

24.1. Toxumların əldə edilməsi, istifadəsi və satışı mühafizə olunan sortun patent sahibi ilə bağlanmış lisenziya müqaviləsi əsasında həyata keçirilir.

24.2. Bitki sortlarının toxumlarından istifadəyə görə patent sahibi ilə bağlanmış lisenziya müqaviləsində patent sahibinə ödəniləcək haqqın miqdarı, müqavilənin şərtləri və tərəflərin məsuliyyəti göstərilməlidir. Sort müəllifinə və

*Ardı 3-cü səhifədə*

patent sahibinə toxumdan istifadəyə görə müvafiq olaraq mükafatın və haqqın ödənilməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. Dövlət reyestrinə daxil edilməmiş bitki sortlarının toxumları aşağıdakı hallarda istifadə oluna bilər:

24.2.2. müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən;

24.2.3. seleksiya, tədqiqat, sınaq və sərgilərdə nümayiş etdirmək məqsədilə.

24.3. Toxumun istehsalında və dövriyyəsində genetik modifikasiya olunmuş bitkilərin, yaxud müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış kənd təsərrüfatı bitki materiallarının istifadəsinə yol verilmir.

Maddə 25. **Toxumların idxal və ixracı**

25.1. Dövlət reyestrində qeydiyyatdan keçmiş sortluq və səpin keyfiyyətlərini təsdiq edən uyğunluq sertifikatı və fitosanitar sertifikatı olan toxumlar Naxçıvan Muxtar Respublikasına idxal oluna bilər.

25.2. Dövlət reyestrində qeydiyyata alınmamış sortların toxumları yalnız seleksiya, tədqiqat, sınaq və sərgilərdə nümayiş etdirmək məqsədilə idxal oluna bilər.

25.3. Genetik modifikasiya olunmuş bitkilərin, eləcə də müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış kənd təsərrüfatı bitki materiallarının elmi-tədqiqat, sınaq və sərgilərdə nümayiş etdirmək məqsədi ilə Naxçıvan Muxtar Respublikasına idxalına yalnız müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada yol verilə bilər.

25.4. Toxumların karantin icazəsi olmayan vasitələrlə idxal və ixracına yol verilmir.

25.5. Müqavilələrdə başqa şərtlər nəzərdə tutulmamışdırsa, toxumların ixrac və idxal edilməsində beynəlxalq sertifikatların göstəriciləri qəbul edilir.

6-cı fəsil

**Toxumçuluğun stimullaşdırılması və qanunvericiliyin pozulmasına görə məsuliyyət**

Maddə 26. **Toxumçuluğun stimullaşdırılması**

26.1. Toxumçuluğun təşviq edilməsi güzəştli investisiya, qiymət, kredit və vergi siyasəti vasitəsilə həyata keçirilir.

26.2. Toxum fondlarının yaradılması üçün qanunvericilikdə nəzərdə tutulmuş qaydada lazımi maliyyə ehtiyatları ayrılır.

26.3. Toxum fondlarının dəyərinin 50 faizi istehsalçılara qabaqcadan ödənilə bilər.

26.4. Müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş kvota əsasında elmi-tədqiqat və tədris müəssisələrinin təcrübə təsərrüfatlarında tələb olunan miqdarda orijinal, super elit və elit toxumların istehsalına çəkilən xərclər dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilir.

26.5. Toxumçuluq və tinglik təsərrüfatlarından satılan 1-ci və 2-ci reproduksiyalı toxumlara və tinglərə görə dövlət büdcəsindən təsərrüfatlara subsidiya ödənilir. Subsidiyanın ödənilməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

26.6. Toxumluq bitkilər qanunvericiliyə uyğun olaraq sığortalanır.

26.7. Karantin obyektlərinin yayılmasının qarşısını almaq üçün profilaktiki və ləğvedici tədbirlərin aparılması nəticəsində məhv edilən toxumlara və toxumluq əkinlərə çəkilən xərclər qanunvericiliyə uyğun olaraq kompensasiya edilir.

Maddə 27. **Toxumçuluğun elmi təminatı**

Naxçıvan Muxtar Respublikasında toxumçuluğun elmi təminatı müvafiq elmi müəssisə və təşkilatlar tərəfindən həyata keçirilir və məqsədli proqramlar əsasında maliyyələşdirilir.

Maddə 28. **Toxumçuluq haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət**

28.1. Toxumçuluq haqqında qanunvericiliyin pozulması aşağıdakı hallarda məsuliyyətə səbəb olur:

28.1.1. karantin obyekti ilə yoluxmuş, dövlət standartlarına uyğun gəlməyən toxumların əkini, səpini, tədarükü və satışı;

28.1.2. sortluq və səpin keyfiyyətlərini təsdiq edən uyğunluq sertifikatı və fitosanitar sertifikatı olmayan toxumların idxalı, ixracı və ticarət dövriyyəsinə daxil edilməsi;

28.1.3. toxum partiyasının keyfiyyətinin qiymətləndirilməsi qaydalarına əməl edilməməsi, yaxud keyfiyyət göstəricilərinin bilərəkdən təhrif olunması;

28.1.4. lisenziya müqaviləsi bağlanmadan bitki sortlarının toxumlarından istifadə edilməsi;

28.1.5. toxumçuluğun əsas prinsiplərinə riayət edilməməsi;

28.1.6. toxumçuluqda tətbiq edilən uçot-hesabat sənədlərinin aparılmasında saxtakarlığa yol verilməsi;

28.1.7. qanunvericilikdə nəzərdə tutulan digər hallar.

28.2. Bu Qanunun tələblərinin pozulmasına görə məsul şəxslər müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 25 iyul 2017-ci il*

## "Toxumçuluq haqqında" Naxçıvan Muxtar Respublikasının 2017-ci il 25 iyul tarixli 13-V QN nömrəli Qanununun tətbiq edilməsi barədə

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin

## FƏRMANI

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq "Toxumçuluq haqqında" Naxçıvan Muxtar Respublikasının 2017-ci il 25 iyul tarixli 13-V QN nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

Müəyyən edilsin ki:

1. "Toxumçuluq haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 1.0.14-cü, 7.2-ci, 12.1-ci, 14.1-ci, 20.2-ci və 20.3-cü maddələrində nəzərdə tutulmuş "dövlət toxumçuluq xidməti"nin kənd təsərrüfatı, meşə və dərman bitkiləri toxumçuluğu sahəsində səlahiyyətlərini müvafiq olaraq Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi həyata keçirirlər;

2. həmin Qanunun 7.1-ci, 13.4-cü (dövlət və sığorta toxum fondlarına toxum tədarükü məsələləri üzrə), 13.5-ci (dövlət və sığorta toxum fondlarına sifariş verilməsi məsələləri üzrə) və 13.6-cı (dövlət və sığorta fondlarına sərəncam verilməsi məsələləri üzrə) maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini müvafiq olaraq Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi həyata keçirirlər;

3. həmin Qanunun 10.2-ci, 13.3-cü, 13.9-cu, 24.2-ci, 24.2.2-ci, 25.3-cü, 26.4-cü və 26.5-ci maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti həyata keçirir;

4. həmin Qanunun 13.4-cü (yerli toxum fonduna toxum tədarükü məsələləri üzrə), 13.5-ci (yerli toxum fonduna sifariş verilməsi məsələləri üzrə) və 13.6-cı (yerli toxum fonduna sərəncam verilməsi məsələləri üzrə) maddələrində "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini yerli icra hakimiyyəti orqanları həyata keçirirlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 25 iyul 2017-ci il*

# Cari ilin birinci yarısının yekunları müzakirə edilib, qarşıda duran vəzifələr müəyyənləşdirilib



***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın sədri İsmayıl Qəribli kollegiya iclasını giriş sözü ilə açaraq məruzə edib.***

Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya 2017-ci ilin ilk 6 ayı ərzində öz fəaliyyətini gücləndirmiş, qanunvericilikdən, Əsasnamədən və iş planından irəli gələn vəzifələri icra etmişdir. Hesabat dövründə dövlət qulluğuna dair qanunvericiliyin dövlət orqanlarında tətbiqinə nəzarət edilmiş, 3 dövlət orqanının qanunvericiliyə uyğun olmayan 3 qərarı ləğv etdirilmişdir.

Qeyd olunub ki, komissiya Naxçıvan Muxtar Respublikasında vətəndaşların dövlət qulluğuna qəbulunun mərkəzləşdirilmiş qaydada müsabiqə və şəffaflıq şəraitində həyata keçirilməsini təşkil edir. Hazırda komissiya tərəfindən dövlət orqanlarında inzibati vəzifələrin tutulması üçün elan edilmiş müsabiqəyə sənəd qəbulu davam edir. Müsabiqəyə 49 dövlət orqanından 642 vakant vəzifə çıxarılmışdır ki, onlardan 1-i inzibati vəzifələrin dördüncü, 22-si inzibati vəzifələrin beşinci, 93-ü inzibati vəzifələrin altıncı, 526-sı isə yeddinci təsnifatına aiddir. Hesabat dövründə bir sıra dövlət orqanları üçün daxili müsabiqələrin, şöbə və sektor müdiri vəzifələrinin tutulması üçün test imtahanlarının keçirilməsi təmin edilmişdir.

2017-ci ilin birinci yarısında muxtar respublikada fəaliyyət göstərən dövlət qulluqçularının Dövlət Qulluqçularının Reyestrinə daxil edilməsi işi davam etdirilmiş, 2419 dövlət qulluqçusu barədə məlumatlar reyestrə daxil edilmişdir. Dövlət qulluğunda çalışan şəxslərin 26 faizini gənclər, 22,5 faizini qadınlar təşkil etmişdir. Komissiyanın test bazasının yeni suallarla zənginləşdirilməsi və testlərin ekspertizasının davam etdirilməsi diqqətdə saxlanılmış, test bazasında olan suallar qanunvericiliyə edilən dəyişikliklərə uyğunlaşdırılmış, 590 yeni test tapşırığı tərtib edilərək ekspertizadan keçirilmiş və test bankına əlavə olunmuşdur.

Diqqətə çatdırılıb ki, "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli Sərəncamından irəli gələn vəzifələrin icra edilməsi məqsədilə Naxçıvan Dövlət Universitetinin Dövlət və bələdiyyə idarəetməsi ixtisasının tələbələri üçün tədris ili ərzində komissiyanın təcrübəli əməkdaşları tərəfindən ayda iki dəfə açıq dərslər keçilmiş, komissiyanın inzibati binasında tələbələr üçün təcrübə təşkil edilmişdir.

Dövlət qulluğu sahəsində qəbul edilmiş normativ hüquqi aktların öyrədilməsi ilə bağlı maarifləndirici tədbirlər hesabat dövründə diqqət mərkəzində saxlanılmış, keçirilən seminarlarda, ümumilikdə, inzibati vəzifə tutan 152 dövlət qulluqçusu iştirak etmişdir. Bundan başqa, digər mərkəzi icra hakimiyyəti orqanları ilə münasibətlər gücləndirilmişdir, – deyən İsmayıl Qəribli bildirmişdir ki, dövlət orqanlarının kadr qurumları ilə mütəmadi əlaqə saxlanılmış, dövlət qulluqçularının şəxsi işlərinin və reyestrin aparılması qaydası, ixtisas dərəcələrinin verilməsi və digər məsələlərlə bağlı metodik köməklik göstərilmişdir.

Sonra komissiyanın şöbə müdiri Mahir Abbasov, şöbə müdiri vəzifəsini icra edən Samiq Salayev və sektor müdiri Türkan Gülməmmədli məruzə ətrafında çıxış etmişlər.

Komissiyanın sədri İsmayıl Qəribli kollegiya iclasına yekun vuraraq qarşıda duran vəzifələrdən danışmışdır.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

***Naxçıvan Beynəlxalq Hava Limanında bu ilin birinci yarısının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclas keçirilib.***



İclası giriş sözü ilə Beynəlxalq Hava Limanının direktoru Mənsur Gülməmmədli açaraq məruzə edib.

Mənsur Gülməmmədli məruzəsində bildirib ki, bu ilin birinci yarısında Naxçıvan Beynəlxalq Hava Limanında bir sıra layihələr reallaşdırılıb. Bu layihələr hava nəqliyyatı sektorunun bütün sahələrini əhatə edib. Bəhs olunan dövrdə Beynəlxalq Mülki Aviasiya Təşkilatının, Mülki Nəqliyyat Assosiasiyasının tələbləri çərçivəsində elm və texnikanın ən son nailiyyətləri hava limanında tətbiq edilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində hava limanı üçün zəruri olan maşın-mexanizmlər, texniki vasitələr, materiallar alınıb gətirilib, limanda normal iş prosesi təmin edilib. Bu ilin birinci yarısında kadr hazırlığı məsələsi də diqqətdə saxlanılıb, əməkdaşlar Milli Aviasiya Akademiyasının Pilotların Hazırlığı Mərkəzində təşkil olunan kurslarda iştirak ediblər.

Qeyd olunub ki, hava gəmilərinə qulluq, sərnişin və yükün daşınmasında xidmətin yüksək səviyyədə təşkil edilməsi, təhlükəsizlik tədbirlərinin gücləndirilməsi, ayrı-ayrı xidmət sahələrinin zəruri texniki vasitələrlə təmin edilməsi ilin ilk yarısında qarşıya qoyulan ən başlıca vəzifələrdən olub. Aviasiya Təhlükəsizlik Xidmətinin maddi-texniki bazası möhkəmləndirilib, aerovağzal kompleksində əl yükləri və baqajın yoxlanılması prosesi beynəlxalq norma və qaydalara uyğun təşkil edilib. Bundan başqa, mühafizə postlarında şəxsi heyətin ayıq-sayıqlığının artırılması istiqamətində profilaktik tədbirlər həyata keçirilib. Uçuşların təhlükəsizliyinin təmin edilməsi məqsədilə hava limanında təyyarə dayanacaqlarının örtüyünün xüsusi asfalt qatı ilə üzlənməsi prosesi artıq başa çatdırılıb. Haliyədə aerovağzalətrafı yolların təmiri işləri aparılır.

Vurğulanıb ki, bəhs edilən dövrdə yüklərin təhlükəsiz, standartlara uyğun və tövsiyə olunan tələblər səviyyəsində daşınmasını təmin etmək məqsədilə yük terminalında yenidənqurma işləri başa çatdırılıb. Şəxsi heyətin iş fəaliyyətinin tənzimlənməsi üçün bütün iş otaqları təmir olunub və terminal lazımi avadanlıqlarla təchiz edilib.

Məruzə ətrafında Naxçıvan Beynəlxalq Hava Limanının Aviasiya Təhlükəsizlik Xidmətinin rəisi Elnar Əliyevin, Daşımaların Təşkili və Koordinasiyası Xidmətinin rəisi Amid Zülfüqarovun, Uçuşların Elektrik-İşıq Texniki Təminat Xidmətinin rəisi Sevindik Novruzovun, Aerodrom Təminatı Sahəsinin rəisi İlkin Nəsirovun çıxışları olub.

İclasa Naxçıvan Beynəlxalq Hava Limanının direktoru Mənsur Gülməmmədli yekun vuraraq qarşıda duran vəzifələrin qısa müddətdə və yüksək keyfiyyətlə yerinə yetirilməsinin vacibliyini diqqətə çatdırıb.

**Səbuhi HÜSEYNOV**

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsində keçirilən kollegiya iclasını komitənin sədri Müslüm Cabbarzadə açıb.***

## Bu ilin ilk 6 ayı ərzində muxtar respublikada 2432 daşınmaz əmlak obyekti qeydiyyata alınıb



Bildirilib ki, muxtar respublikamızda mülkiyyət hüquqlarının tənzimlənməsi sahəsində müvafiq dövlət siyasətinin daha da təkmilləşdirilməsi torpaq və əmlak münasibətlərinin inkişafını yeni mərhələyə yüksəldib. Bu baxımdan əmlak və torpaq münasibətlərinin tənzimlənməsi sahəsində qarşıya qoyulmuş vəzifələrin icrası, daşınmaz əmlakın kadastrı və reyestrinin təkmilləşdirilməsi sahəsində ardıcıl fəaliyyətin təmin edilməsi komitə əməkdaşları tərəfindən diqqət mərkəzində saxlanılıb.

Qeyd olunub ki, "Naxçıvan Muxtar Respublikasında torpaq münasibətlərinin tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 2 aprel tarixli Fərmanına uyğun olaraq Naxçıvan şəhərinin 1-ci sahə inzibati ərazi dairəsində, Şərur rayonunun Yengicə və Təzəkənd yaşayış məntəqələrində daşınmaz əmlak obyektlərinin plana alınması işləri başa çatdırılıb, Naxçıvan şəhərinin 2-ci və 3-cü sahə inzibati ərazi dairələrində də bu işlər davam etdirilib, Şərur rayonunun Düdəngə kəndində planaalma işlərinə başlanılıb. Görülmüş işlərin nəticələri mütəxəssislər tərəfindən yerində yoxlanılıb, aşkar olunan uyğunsuzluqlar araşdırılaraq aradan qaldırılıb. 6 ay ərzində Naxçıvan şəhəri üzrə 4216, Şərur rayonu üzrə 878 daşınmaz əmlak obyekti plana alınıb.

Diqqətə çatdırılıb ki, "Bələdiyyələrin dövlət reyestrinə daxil edilən bələdiyyələrin xəritələrinin hazırlanması Qaydası"na uyğun olaraq Naxçıvan şəhər inzibati ərazi vahidinə daxil olan bütün bələdiyyələrin, Ordubad rayon inzibati ərazi vahidinə daxil olan Aşağı Əylis, Yuxarı Əylis, Aşağı Əndəmic, Yuxarı Əndəmic, Kələki, Unus, Dəstə, Dırnıs, Vənənd, Gənzə, Vələver, Nüsnüs, Xanağa, Düylün və Çənnəb bələdiyyələrinin sərhəd xəritələri və müvafiq yerquruluşu sənədləri hazırlanaraq Bələdiyyələrin Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Milli Məclisinə göndərilib. Rayonun Aza, Azadkənd, Üstüpü, Bist, Parağaçay, Xurs, Sabirkənd, Gilançay, Biləv, Nəsirvaz, Parağa, Qoşadizə, Tivi, Şəhriyar və Ordubad bələdiyyələrinin, Culfa rayonunun isə Ərəzin, Teyvaz, Camaldın, Dizə, Kırna, Yaycı, Ləkətağ, Şurud, Ərəfsə və Saltaq bələdiyyələrinin sərhəd xəritələrinə dair müvafiq yerquruluşu sənədləri elektron variantda hazırlanıb və torpaqların növləri üzrə uçotu aparılıb. Bununla yanaşı, Şərur rayonunun 19, Babək rayonunun 25 bələdiyyəsinin mövcud mülkiyyət növləri üzrə torpaq kadastr xəritələri hazırlanıb, buradakı məlumatlar ilə torpaq reyestrində saxlanılan məlumatların uyğunluğu yoxlanılıb və uçotu aparılıb.

Komitə sədri vurğulayıb ki, cari ilin ilk 6 ayı ərzində muxtar respublika üzrə 1036 torpaq sahəsi, 39 qeyri-yaşayış binası, 41 qeyri-yaşayış sahəsi, 436 mənzil, 873 fərdi yaşayış evi, 7 əmlak kompleksi olmaqla, cəmi 2432 daşınmaz əmlak obyekti qeydiyyata alınıb. 172 girov qeydi aparılıb, yüklülüyə dair 1671 arayış verilib, 71 sorğu-məktub cavablandırılıb. Hesabat dövründə mülkiyyət hüquqlarının dövlət qeydiyyatının alınması və daşınmaz əmlakla bağlı digər əməliyyatların aparılması üçün 5195 ərizə qəbul edilib, muxtar respublikanın 46 yaşayış məntəqəsində 404 müraciətə baxılıb. Daxil olmuş müraciətlər əsasında 1873 texniki sənəd hazırlanıb. Bundan əlavə, 2017-ci ilin I yarımili ərzində muxtar respublika üzrə ilkin qeydiyyat, bölünmə və birləşmə nəticəsində yeni yaranmış 410 daşınmaz əmlak obyektinə ünvan verilib.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli Sərəncamı ilə komitənin hamiliyinə verilmiş Naxçıvan Dövlət Universitetinin Torpaqşünaslıq və aqrokimya ixtisasında təhsil alan tələbələrlə görüşlər keçirilib, tələbələrin komitədə təcrübə keçməsi təmin edilib, 2 tələbə yay tətili dövründə komitənin tabeliyində olan Dövlət Yerquruluşu, Geodeziya və Xəritəçəkmə Layihə İnstitutunda işə götürülüb.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

Kollegiya iclasına Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin sədri Müslüm Cabbarzadə yekun vurub.

**Səbuhi HƏSƏNOV**

## Miqrantların hüquqlarının qorunması mövzusuna həsr olunmuş tədbir keçirilib

***İyulun 26-da Naxçıvan şəhərindəki "Təbriz" otelində müvafiq təşkilatların əməkdaşlarının iştirakı ilə "Həssas miqrantların, o cümlədən əməkçi miqrantların, məcburi köçkünlərin, sığınacaq axtaranların və qaçqınların haqlarının müdafiəsi" mövzusunda tədbir keçirilib.***



Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi, miqrasiya xidməti müşaviri Şahin Nəbiyev qonaqları salamlayaraq dünyada miqrasiya prosesinin tənzimlənməsinin və miqrantların hüquqlarının qorunmasının ən aktual problemlərdən biri olduğunu deyib.

Bildirilib ki, statistik məlumatlara görə, dünyada bir milyarddan çox miqrant var. Onların 250 milyonu beynəlxalq miqrant, 750 milyonu isə ölkələrin daxilində miqrasiya edənlərdir. Bu gün dünyada qaçqın və məcburi köçkün problemi çox kritik bir həddə çatıb. Buna görə də məcburi köçkünlərin ağır vəziyyəti və ehtiyacları diqqətdən kənar qalmamalıdır. Beynəlxalq ictimaiyyətin bu problemin həllinə münasibətdə birgə mövqedən çıxış etməsi zəruridir. Münaqişədən əziyyət çəkmiş ölkə kimi biz qaçqınların və məcburi köçkünlərin vəziyyətini, çətinliklərini çox yaxşı başa düşürük. Təcavüzkar Ermənistanın Azərbaycan torpaqlarının 20 faizini işğal etməsi nəticəsində bir milyondan çox azərbaycanlı öz daimi yaşayış yerlərindən qovularaq qaçqın və məcburi köçkün vəziyyətinə düşüb.

Xidmət rəisi qeyd edib ki, bu gün ölkəmiz üçün miqrasiya problemlərinin beynəlxalq normalara uyğun tənzimlənməsinin təmini, miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi prioritet istiqamətlərdəndir. Dövlət başçısının həyata keçirdiyi daxili və xarici siyasətin uğurlarının təzahürü kimi, ölkəmizdə və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin bütün hüquq və azadlıqları – sərbəst hərəkət etmələri, yaşayış yeri seçmələri, təhsil almaları, əmək fəaliyyəti ilə məşğul olmaları, səhmdar və sahibkar kimi fəaliyyət göstərmələri, şəxsi toxunulmazlıqları, mənzil toxunulmazlıqları, sağlamlıqlarının qorunması, vicdan azadlığı tam təmin olunur. Ölkəmiz miqrasiya sahəsində beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edir və görülən işlər həmin təşkilatlar tərəfindən yüksək qiymətləndirilir.

Beynəlxalq Miqrasiya Təşkilatının (BMqT) Azərbaycandakı Nümayəndəliyinin rəhbəri Serhan Aktoprak çıxışında bu tədbirin Naxçıvan Muxtar Respublikasında keçirilməsinə yaradılan şərait üçün muxtar respublika rəhbərinə minnətdarlığını bildirib. Serhan Aktoprak Azərbaycanda 6 fərqli istiqamətdə 6 müxtəlif tədbir keçirildiyini və beləliklə də, Azərbaycanın təhlükəsiz, nizamlı və tənzimlənən miqrasiya üzrə qlobal kompakta dəstək olduğunu vurğulayıb.

Serhan Aktoprak xüsusilə qeyd edib ki, Azərbaycanda keçirilən tədbirlərdə əhatə olunan mövzular Beynəlxalq Miqrasiya Təşkilatına üzv dövlətlər tərəfindən 2016-cı il sentyabrın 19-da qəbul olunan "Qaçqınlar və miqrantlar üçün Nyu-York Bəyannaməsi"ndə əks etdirilən miqrasiya ilə əlaqəli 24 istiqamətə uyğun olaraq müəyyənləşdirilib. Bu gün təkcə Avrasiya regionunda deyil, dünyanın başqa bölgələrində də maraq göstərilən, öyrənilən miqrasiya və sərhəd idarəçiliyində Azərbaycan modeli adlanan əsaslı bir təcrübə diqqət mərkəzindədir. Bu mənada, Azərbaycanın beynəlxalq və regional proseslər çərçivəsində qlobal kompaktda aktiv iştirakı və ona liderlik etməsi heç də təəccübləndirici deyil.

Tədbirdə BMqT-nin mütəxəssisi Klaus Foldenin "Nyu-York Bəyannaməsi və təhlükəsiz, nizamlı və tənzimlənən miqrasiya üzrə qlobal kompakt", BMqT-nin hüquq üzrə mütəxəssisi Fanny Dufvenmarkın "Miqrantların haqlarının və fundamental azadlıqlarının qorunması və həssas vəziyyətlərdə olan miqrantların xüsusi ehtiyacları", BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycandakı Nümayəndəliyinin rəhbəri Furio De Angelisin "Qaçqın və sığınacaq axtaranların hüquqlarının qorunması", Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin əməkdaşı Kənan Məmmədovun "Miqrantların hüquqlarının qorunmasına dair Azərbaycan qanunvericiliyi" mövzularında təqdimatları olub. Təqdimatlar zamanı mövzulara slaydlar vasitəsilə ətraflı izah verilib.

Sonra tədbir iştirakçıları panel müzakirələrində iştirak ediblər.

**Tural AĞAYEV**

## Sədərək rayonunda növbəti əmək yarmarkası təşkil edilib

***Əmək yarmarkalarının keçirilməsi muxtar respublikamızda əhalinin məşğulluğunun təmin olunmasında mühüm rol oynayır. Bu tədbirlərin davamı kimi iyulun 26-da Sədərək rayonunda növbəti əmək yarmarkası keçirilib.***

Tədbirdə çıxış edən rayon Məşğulluq Mərkəzinin direktoru Həsən Nəsirov qeyd edib ki, əhalinin məşğulluğunun artırılması istiqamətində həyata keçirilən tədbirlərin davamlılığının təmin edilməsi məqsədilə qəbul edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" muxtar respublikamızda sahibkarlığın inkişaf etdirilməsinə, yeni iş yerlərinin yaradılmasına, regiondakı əmək ehtiyatlarının iqtisadi fəallığının yüksəldilməsinə öz töhfəsini verir. Bu proqram əmək ehtiyatlarının əmək bazarına uyğunlaşdırılması və işaxtaranların sosial müdafiəsi üçün yeni imkanlar yaradır.

Sədərək Rayon İcra Hakimiyyətinin əməkdaşı Bəxtiyar Mahmudov çıxışında rayonun sosial-iqtisadi inkişafından söz açıb. Bildirib ki, muxtar respublikamızda əmək bazarının təkmilləşdirilməsi, iqtisadi fəallığın yüksəldilməsi üçün əlverişli şəraitin yaradılması sahəsində müvafiq tədbirlər həyata keçirilir, insan amilinə qayğı prioritet vəzifəyə çevrilir. Bu istiqamətdə həyata keçirilən tədbirlərin nəticəsidir ki, sərhəd bölgəsi olan Sədərək rayonunda da əhalinin məşğulluğu prioritet vəzifəyə çevrilib, ötən dövrdə bu sahədə uğurlu nəticələr əldə olunub.

İşaxtaran vətəndaşlar yarmarkanın təşkilində əməyi olanlara minnətdarlıq edərək qeyd ediblər ki, vətəndaşların müvafiq işlərlə təmin olunmasında əmək yarmarkalarının əhəmiyyəti böyükdür.

Sonra tədbir iştirakçıları idarə, müəssisə və təşkilatlar tərəfindən əmək yarmarkasına çıxarılmış boş iş yerləri ilə tanış olublar. 7 təşkilatdan 91 boş iş yerinin çıxarıldığı tədbirdə 11 nəfərə işə göndəriş verilib.

Qeyd edək ki, növbəti əmək yarmarkası bu gün Kəngərli rayonunda keçiriləcəkdir.

**Xəbərlər şöbəsi**

## Voleybol üzrə yoldaşlıq görüşü

*Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında voleybol üzrə yoldaşlıq görüşü keçirilib.*

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Voleybol Federasiyasının birgə təşkil etdiyi görüşdə "Sədərək" və "Naxçıvan" komandaları üz-üzə gəlib.

Görüşdən öncə çıxış edən Voleybol Federasiyasının sədr müavini Aydın Mirzəyev bildirib ki, bu gün muxtar respublikada idmanın digər növləri kimi, voleybolun da inkişafına xüsusi diqqət göstərilir. Cari ildə keçirilən tədbirlər, həmçinin kişilərdən ibarət voleybol üzrə Azərbaycan çempionatının final mərhələsinin Naxçıvanda keçirilməsi muxtar respublikada bu növə marağın çox olduğunun göstəricisidir. Məqsədimiz voleybol idman növünü uşaq və yeniyetmələr arasında təbliğ etmək, gəncləri zərərli vərdişlərdən uzaq tutmaqdır.

Maraqlı mübarizə şəraitində keçən qarşılaşmanı Sədərək voleybolçuları 3:1 hesablı qələbə ilə başa vurublar.

Sonda idmançılara təşkilatçılar tərəfindən diplomlar təqdim edilib.

**Ceyhun MƏMMƏDOV**

## Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi

### *2017-ci ildə aşağıdakı lotlar üzrə malların satın alınması məqsədilə kotirovka sorğusu elan edir*

*Lot-1. Avtomobil yolları nişanları və xətlərinin çəkilişində istifadə olunan boyaların satın alınması*

*Lot-2. Şüşə tozunun satın alınması*

*Lot-3. Sellülozik tinərin satın alınması.*

Kotirovka təklifləri 9 avqust 2017-ci il saat 13⁰⁰-dək qəbul olunacaq.

Təklif zərfləri 11 avqust 2017-ci il saat 10⁰⁰-da açılacaqdır.

***Əlaqələndirici şəxs: Musa Əliyev***

***Ünvan: Naxçıvan şəhəri, N.Əliyev küçəsi 2.***

***Maraqlananlar (036) 545-14-54 və ya (050) 514-67-67 nömrəli telefonlarla əlaqə saxlaya bilərlər.***

**İtmişdir**

Məmmədova Zərri Hüseyn qızının adına olan Naxçıvan şəhəri, "Əlincə" məhəlləsi, bina 1^A, 38 nömrəli mənzilin 8306 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 599